# YARDIMLI RAYONUNDA İLK EKSPERİMENTAL KARTOF NÜMAYİŞ SAHƏLƏRİ

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

## “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

**MAY 2024** **2-ci hissə**




*Açılış tədbiri, Yardımlı rayonu, Deman kəndi*

Böyük məmnunluq hissiylə Azərbaycanın Yardımlı rayonunun beş kəndində ilk kartof nümayiş sahələrinin uğurla salındığını bildiririk. “Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstək” layihəsinin bu təşəbbüsü rayonda meyvə və tərəvəz üzrə dəyər zəncirlərinin rəqabət qabiliyyətinin artırılmasına yönəlib.

4 aprel 2024-cü il tarixində Deman kəndində Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini, DAİM-in direktoru və əməkdaşları, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Lənkəran və Masallı üzrə KOB dostları və 40 fermerin iştirakıyla açılış tədbiri keçirilib.

Açılış mərasimindən sonra Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun direktor müavini dörd toxumluq kartof çeşidini təqdim edib, kartofun əkilməsi və ona qulluq üzrə praktiki təlim keçirib və yerli fermerlərlə dayanıqlı kartof becərilməsi üzrə dəyərli biliklər paylaşıb. Təlim torpağın sınaqdan keçirilməsi və hazırlanması, əkin texnikası, suvarma üsulları, zərərvericilərə qarşı mübarizə, məhsul yığımı təcrübələri, məhsuldan sonra saxlama texnikası və məhsulun bazara hazırlığını artırmaq üçün keyfiyyətin qiymətləndirilməsi mövzularını əhatə edib.



*Kartof əkilməsi üçün praktiki texnika və qabaqcıl təcrübələrin müzakirəsi*

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ



*Ənənəvi kartof anbarı, Deman kəndi, Yardımlı*

Bu təşəbbüs çərçivəsində Arvana, Avaş, Deman, Xanbulaq və Kürəkçi kəndlərindən olan 8 fermerə 3015 kq yüksək keyfiyyətli yerli və xarici toxumluq kartof paylanılıb. 4 yerli sort - Sevinc, Çənlibel, Vaqif və Əmiri və 4 xarici sort - Kolomba, Orkestr, Soraya və Bernina dağlıq əraziyə uyğunlaşma qabiliyyətinə və məhsuldarlıq potensialına görə diqqətlə seçilmişdir. Bu toxumluq kartoflar mütəxəssis məsləhətiylə düzgün aqrotexniki qulluq göstərilərək 1 hektar nümayiş sahələrində becəriləcək. Düzgün qulluq göstərmək üçün fermerlərin sahələrindən sınaq üçün torpaq nümunələri götürülüb. Nəticələrə əsasən fermerlərə kartof istehsalı dövrü boyunca istiqamət vermək üçün hər bir çeşid üzrə fərdi qulluq və becərmə cədvəlləri hazırlanacaq.



*Paylanma üçün toxumluq kartof, DAİM, Yardımlı*

Nümayiş sahələri fermerlər arasında əməkdaşlığa səbəb olub və Yardımlı Kartof İstehsalçıları Qrupu yaradılıb. Qrupun üzvü İsgəndər İsayev nümayiş sahələri vasitəsilə çox yaxşı bildiyi ekoloji cəhətdən təmiz kartofun istehsalını artırmaqda çox qərarlı olduğunu bildirib. Fermerlərə davamlı dəstək və kartof yetişdirmə texnikası haqqında məlumat vermək üçün mütəxəssislər və layihə əməkdaşlarıyla WhatsApp qrupu yaradılıb. Layihə komandası mütəxəssislərlə birlikdə böyüməni müşahidə etmək üçün kartof sahələrinə mütəmadi monitorinq səfərləri təşkil edəcək, rayon üçün ən məhsuldar olan və ən uyğun sortları əldə etmək üçün məlumat toplayacaq. Növbəti addımlara istehsalçılar üçün dəyər zənciri ilə əlaqələrini gücləndirən müasir əməkdaşlıq mərkəzinin formalaşdırılması, kartofun brendləşdirilməsi və bazarlara çıxışın artırılması daxildir. Rayonda ilk eksperimental kartof nümayiş sahələri Yardımlı rayonunda fermerlərin rifahı üçün ilk addımdır. “Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.



*Kartof əkilməsinin praktiki şəkildə fermerlərə izah edilməsi*

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir.*
*Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*